# Yeni nəşrlər






"Silinməz sözdən izim" adlı məqalələr toplusu görkəmli Azərbaycan şairi Hüseyn Kürdoğlunun 90 illiyinə həsr edilmiş yeni kitabdır. "Elm" nəşriyyatı tərəfindən bu il işıq üzü görən, 632 səhifədən ibarət kitabın redaktoru Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, tərtibçilər Şirindil Alışanlı və İlham Alışanlıdır. Poeziyamızda məxsusi dili, üslubu, obrazlı deyimləri ilə seçilən və sevilən şairin həyat və yaradıcılıq yoluna işıq salan məqalələr toplusunda Yaşar Qarayevin, İsa Həbibbəylinin, Tofiq Hacıyevin, Bəkir Nəbiyevin, Teymur Bünyadovun, Qasım Qasımzadənin, Nəriman Həsənzadənin, Məmməd Aslanın, Elnarə Akimovanın, Adil Cəmilin və digər tanınmış elm, sənət adamlarının dəyərli fikirləri yer alıb. Bu məqalələrdə Hüseyn Kürdoğlu poeziyasının forma, məzmun xüsusiyyətləri, şairin vətəndaşlıq mövqeyi araşdırmaya cəlb olunur.

Yaşar Qarayev yazır: "Hüseynin dördlüklərində xalis xəyyamvari ruh yoxdur. Taleyin yox, təbiətin müdrikliyinə heyranlıq və pərəstiş var". Həqiqətən də Laçında - dilbər bir guşədə dünyaya göz açan, boya-başa çatan bir şairin ilkin yaddaşında yer alan məhz o təbiətin ecazkarlığı olmalıydı...

Tofiq Hacıyev yazır: "Hüseynin dili möcüzədir, qənirsiz bir gözəldir. Anadilli şeirimizin ən saf milli nümunələrindəndir. Təşbehlərindən tutmuş mübaliğəsinə qədər, səslərindən cümlələrinə qədər əsl təmiz poeziyadır".

Çağdaş ədəbiyyatşünaslarımız, o cümlədən H.Kürdoğluya monoqrafiya həsr etmiş professor Qəzənfər Paşayev də şairin dil sehrindən daha çox danışmışlar. Məmməd Aslan isə belə düşünürdü: "Hüseyn Kürdoğlu ayrı heç nə yazmamış olsaydı belə, təkcə "Qaya çiçəkləri" silsiləsinə görə uzun bir dövrün ən qabil şairidir, dilimizin heyrət ediləcək əzəmi böyüklükdə bilicisidir".

Yeni toplu Hüseynsevərlər üçün dəyərli bir ərməğandır.

* * *

Şair Əli Rza Xələflinin "Qardaşımdan qalan dünya" kitabındakı poemalar görkəmli şair Hüseyn Kürdoğluna və onun qardaşı, böyük alim Şirindil Alışanlıya həsr edilib. Kitabın redaktoru və ön sözün müəllifi filologiya üzrə fəlsəfə doktoru İlham Məmmədli, son sözün müəllifi Şəddat Cəfərovdur. Poemalarda Azərbaycan mənəviyyatına xidmət edən iki qardaş haqqında xatirəvari etüdlər, ömürdən, gündən fraqmentlər oxucunu kövrəltmiş olur. Müəllifin sərrast və obrazlı deyimləri təkcə sözügedən mərhum qardaşların yox, həm də bölgənin - Laçının da obrazını yaradır. Professor Asif Rüstəmli haqlı olaraq yazır: "Əli Rza Xələfli qos-qoca ədəbiyyatımızın çoxşaxəli, çoxaşırımlı Xudafərin körpüsüdür. Onun sinəsindən fikir karvanları, həsrət qatarları, sərhəd dirəkləri keçir..."